


Heykəl. XVI əsr Səfəvi döyüşçüsü. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Milli Azərbaycan Tarixi Muzeyinə hədiyyəsi



# Milli Azərbaycan Tarixi Muzeyində "I Şah İsmayıl – sərkərdə və hökmdar" sərgisi

Səbuhi Əhmədov
*MATM-nin Elmi ekspozisiya və sərgilərin təşkili şöbəsinin müdiri,*
*tarix üzrə fəlsəfə doktoru*
*e-mail: chokan@yahoo.com*

Aprelin 15-də AMEA Milli Azərbaycan Tarixi Muzeyində "I Şah İsmayıl – sərkərdə və hökmdar" sərgisinin təntənəli açılışı olub. Rəsmi və bədii hissələrdən ibarət olan açılış mərasimində respublikanın tanınmış elm və ictimai xadimləri, kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

İlk dəfədir ki, Azərbaycan tarixinin görkəmli simalarından biri böyük sərkərdə və hökmdar I Şah İsmayılın dövlət quruculuğuna və hərbi fəaliyyətinə həsr olunmuş belə bir sərgi təşkil edilmişdir. Respublikanın elmi-mədəni həyatında əlamətdar hadisə olan bu sərginin hazırlıq işləri ciddi elmi axtarışlar, geniş bərpa, yeni tərtibat işlərini tələb etmişdir.

İlk növbədə, qeyd etmək lazımdır ki, sərginin konsepsiyası akademik Ramiz Mehdiyevin 2014-cü ildə işıq üzü görmüş "Şah İsmayıl – sərkərdə və hökmdarın portreti" kitabı əsasında tərtib olunmuşdur. Kitabda I Şah İsmayılın etnik mənşəyi, uşaqlıq illəri, həyat və fəaliyyəti haqqında tarixi faktlar, dahi şəxsiyyət haqqında dünya alimlərinin söylədikləri fikirlər toplanmış, eləcə də Azərbaycan xalqının görkəmli oğlu haqqında söylənmiş təhrifedici, subyektiv fikirlərə tutarlı cavablar verilmişdir.

Muzeyin direktoru, akademik Nailə Vəlixanlının rəhbərliyi ilə hazırlanan sərginin kuratoru "Elmi ekspozisiya və sərgilərin təşkili" şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Səbuhi Əhmədov olmuş, sərginin hazırlanmasında muzeyin direktor müavini Əli Məhərrəmovun rəhbərlik etdiyi tərtibat qrupu, bərpa laboratoriyası, müxtəlif fondları fəallıq göstərmişlər.

Təbii ki, istənilən tarixi mövzuda sərginin əsasını tarixi eksponatlar təşkil edir. Hazırda Səfəvilər dövləti və I Şah İsmayılla bağlı olan əşyalar müxtəlif dünya muzeylərində nadir eksponatlar kimi nümayiş olunur. Bununla belə, Milli Azərbaycan Tarixi Muzeyinin apardığı elmi toplama işi sayəsində Səfəvilər dövlətinin ilk rübünə aid unikal eksponatlar əldə olunmuşdur. Azərbaycan Respublikası ərazisində aparılan toplama işi zamanı müxtəlif dünya muzeylərində qorunan eksponatlarla müqayisələr aparılmış, eksponatların dövrünün müəyyən olunması istiqamətində hərtərəfli araşdırmalar həyata keçirilmişdir. Lakin toplanan əksər eksponatların vəziyyəti qənaətbəxş olmadığından, onların sərgilənməsində bəzi problemlər yaranmışdır.

Təhsib Zəvərlinin rəhbərlik etdiyi bərpa laboratoriyasında aparılan uzunmüddətli iş sayəsində XVI-XVII əsrlərdən dövrümüzə qədər gəlib çatmış eksponatlar təmizlənmiş, konservasiya olunmuş, zədələnmiş nümunələr bərpa edilmişdir. Nəticədə unikal tarixi əşyalara ikinci həyat bəxş edilmiş, onlar öz ilkin vəziyyətlərinə qaytarılmışlar.

2. "Qurani-Kərim"in nəstəliq üslubu ilə yazılmış "İxlas" surəsi". Dəvəquşu yumurtası üzərində rəsm. Rəssam: Tahir Ələkbərov. 2009-cu il



Beləliklə, 130-dan artıq eksponat – silahlar, pullar, kaşılar, parçalar sərgi üçün hazırlanmışdır. Sərginin elmi-ekspozisiya planı tərtib edilərkən xronoloji ardıcıllıq metodu əsas götürülmüş, I Şah İsmayılın bioqrafiyasının əsas məqamlarının əks olunması prinsipinə üstünlük verilmişdir. Qeyd etmək lazımdır ki, eksponatlar yalnız vitrinlərdə deyil, həmçinin manekenlər üzərində də yerləşdirilmişdir. Eksponatların mahiyyətini tam açmaq, onları tarixi hadisələrlə bağlamaq məqsədilə informasiya-məlumat panellərindən geniş istifadə olunmuşdur. Belə ki, Azərbaycan Səfəvilər dövlətinin hökmdarı, görkəmli sərkərdə I Şah İsmayılın həyat və fəaliyyətini geniş surətdə əks etdirmək məqsədilə sərgidə 22 informasiya-məlumat paneli, 2 xəritə, 2 portret, 6 iriölçülü banner qurulmuşdur. Panellərdə fotoşəkillər, tablo və sxemlər, eləcə də Azərbaycan, rus və ingilis dillərində məlumat təqdim edilir. Panellərin kompyuter tərtibatı işləri muzeyin elmi işçisi Emin Dadaşov tərəfindən həyata keçirilmişdir.

Sərginin ilk paneli "Görkəmli alimlər I Şah İsmayıl haqqında" adlanır. Burada İ.P.Petruşevski, H.R.Remer, Y.V.fon Hammer, J.P.Ru, R.M.Seyvori, X.Braun, N.Fəlsəfi, J.L.Bake-Qramon, O.Ə.Əfəndiyev kimi dünya şöhrətli alimlərin I Şah İsmayılın orta əsrlər dövründə dünyada baş verən hərbi-siyasi və sosial-iqtisadi proseslərdə oynadığı rol, bəşər tarixində tutduğu mövqe haqqında söylədikləri fikirlər yer almışdır. Təsadüfi deyil ki, tanınmış avstriyalı şərqşünas fon Hammer yazırdı: "XVI əsrin əvvəlində tarixi arenada İsmayılın meydana çıxması o qədər əlamətdar hadisələrə səbəb oldu ki, nəticədə onun hakimiyyəti Asiyanın siyasi və dini tarixində ən vacib dövrlərdən birini təşkil etdi".

"I Şah İsmayılın şəxsiyyəti" və "I Şah İsmayılın etnik mənşəyi" adlı panellərdə Səfəvilər dövlətinin banisi bir insan, şəxsiyyət, sərkərdə və dövlət xadimi kimi qiymətləndirilir. Maraqlıdır ki, dünyanın aparıcı tarixçi və şərqşünasları I Şah İsmayılın etnik mənşəyi ilə bağlı





3. Azərbaycan cəngavəri (XVI əsr). Manekenin üzərindəki XVI-XVII əsrin əvvəllərinə aid silahlar Milli Azərbaycan Tarixi Muzeyinin (MATM) "Silahlar və bayraqlar fondu"nda saxlanılır.

təhriflərə qarşı çıxmış, onun məhz azəri türkü olmasını tarixi faktlarla təsdiqləmişlər. Sərginin bu hissəsində "I Şah İsmayıl (1501-1524)" portreti nümayiş olunur. XVI əsrin əvvəllərində naməlum Venesiyalı rəssam tərəfindən işlənmiş əsərin orijinal variantı Uffisi qalereyasında (Florensiya, İtaliya) qorunur.

"Səfəvi nəslinin ilk nümayəndələri. İsmayılın uşaqlığı" adlı paneldə Səfəvilər nəslinin nümayəndələri, "Səfəviyyə" təriqətinin yaranması, "qızılbaş" istilahının meydana gəlməsi tarixçəsi göstərilir. Burada həmçinin İsmayılın uşaqlıq illərində keçirdiyi məhrumiyyətlərdən, onu qoruyan, ona tərbiyə verən sadiq silahdaşlarından xəbər verilir.

1499-cu ilin avqustunda 13 yaşlı İsmayıl hərb yoluna qədəm qoydu. "XVI – XVII əsr Azərbaycan silahları" adlı vitrində bir neçə "Külah-xud" və "Misri" dəbilqə növləri, xələt biçimli halqalı zireh, qolçaq dəsti, xəncər, bir neçə qalxan, "qızılbaş şəmşiri" qılınc növləri nümayiş olunur. Vitrindəki XV-XVI əsr ayaqlıq dəstinin maraqlı tarixçəsi var. Belə ki, polad lövhələr və birləşdirici halqalardan ibarət olan bu dəst 1991-ci ildə Zəngilanın Ağbil kəndində, ermənilər tərəfindən atılmış mərminin açdığı çalada aşkar olunmuşdur. Təəssüf ki, mərmi partlayışı nəticəsində burada olan başqa silahlar məhv olmuş, yalnız ayaqlıq dəsti nisbətən yaxşı vəziyyətdə muzeyə təqdim edilmişdir. Vitrində hal-hazırda tanınmış kolleksiyaçı N.Xalilinin (İngiltərə) kolleksiyasında olan XV-XVI əsr Azərbaycan cəngavərinin döyüş maskası kimi nümayiş olunan maskanın mulyajı da vardır.

Sərgidə ilk dəfə tərtib olunmuş "I Şah İsmayılın fəthləri" adlı xəritə nümayiş etdirilir. Belə ki, burada 1499-cu ildə (əyalətlərə bölünənə qədər) Ağqoyunlu dövlətinin sərhədləri, XV əsrin 80-ci illərində Ərdəbil şeyxliyinin ərazisi, Səfəvilərin 1502-1510-cu illəri əhatə edən fəthləri xüsusi işarələrlə göstərilmişdir. Xəritə əyani olaraq I Şah İsmayılın əldə etdiyi qələbələri, hərbi-siyasi fəaliyyətinin əsas istiqamətlərini nümayiş etdirir. Buradakı "XVI əsr Səfəvi döyüşçüsü" suvenir fiquru xüsusi maraq doğurur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Milli Azərbaycan Tarixi Muzeyinə hədiyyəsi olan bu fiqur olduqca dəqiq işlənmiş, orta əsr Azərbaycan döyüşçüsünün silah və ləvazimatlarını əks etdirir. Qeyd etmək lazımdır ki, fiqur öz oxu ətrafında fırlanan podium üzərində nümayiş olunur.

4. Bədii tərtibatlı kaşı. XVI əsr. MATM-ın "Arxeologiya Fondu"nda saxlanılır.



Məlumdur ki, elə ilk döyüşlərdə İsmayıl özünü qorxmaz və cəsarətli sərkərdə kimi göstərmişdir. Hər zaman ordusunu qələbəyə ruhlandıran gənc İsmayıl döyüşçüləri tərəfindən sevilir, qələbənin canlı simvolu kimi qəbul edilirdi. "İsmayıl-ordunun canlı qələbə simvolu" adlı müvafiq panno bunu əyani olaraq nümayiş etdirir.

I Şah İsmayılın 1500-1510-cu illərdə qazandığı qələbələr informasiya panellərində, iriölçülü pannolarda və manekenlərdə təmsil olunub. Belə ki, 1500-cü ilin sonunda Gülüstan qalası yaxınlığında baş vermiş Cabani döyüşündə İsmayıl Şirvanşahlar dövlətinin qoşunlarını məğlub etmişdir. Bu döyüş 14 yaşlı İsmayılın fitri hərbi istedadını, şəxsi şücaəti ilə döyüşçüləri arxasınca qələbəyə doğru aparmağa qadir olan sərkərdə olduğunu nümayiş etdirir. Üçxətli müdafiə sisteminə malik olan Bakı kimi strateji qalanın fəthi İsmayılın dövrün mühasirə fəndlərinə (qalanın tam mühasirəyə alınması, döyüş zamanı xəndəyin doldurulması, yeraltı lağımla qala bürclərindən birinin uçurulması) yiyələndiyini nümayiş etdirirdi.





5. Heykəl "Atlı qızılbaş". Keramika, mis, mərmər. Şəxsi kolleksiyada saxlanılır. Heykəltəraş: İslam Həsənəlizadə. 2015-ci il.



8.



6.



7.

1500-1501-ci illərdəki Şərur və Almabulağı döyüşlərində qələbə çalan İsmayıl tarixi Azərbaycan torpaqlarını vahid dövlət sərhədləri daxilində birləşdirdi. Bütöv Azərbaycan, İranın böyük hissəsi, Fars vilayəti və İraq-Əcəm onun dövlətinə daxil edildi. 1503-1504-cü illərdə I Şah İsmayıl Şiraz, İsfahan, Kaşan, Qum, Firuzkuh, Yəzd kimi böyük və qüdrətli şəhərləri tutmağa müvəffəq oldu. Fars, Xuzistan, Gilan, Mazandaran, Kirman kimi iri vilayətlər də onun dövlətinə qatıldı. 1506-cı ildə İsmayıl Diyarbəkri özünə tabe etdi. Qərbdə Səfəvilər dövlətinin sərhədləri Osmanlı dövlətinin hüdudlarına çatdı. 1507-ci ildə Kürdüstan, 1508-ci ildə İraq-Ərəb ələ keçirildi. İslam dünyasının ən böyük mərkəzlərindən olan Bağdad şəhərində I Şah İsmayılın hakimiyyəti quruldu. Faktiki olaraq, 1510-cu ilə qızılbaş qoşunları Amu-Dərya çayının sahillərinə çatdılar. 1510-cu il dekabrın 2-də baş vermiş Mərv döyüşündə I İsmayıl Şeybanilər dövlətinin qoşunlarını məğlub etdi. Xorasan Səfəvilər dövlətinə birləşdirildi. Mavərranəhrdə yenidən hakimiyyətə qızılbaşların müttəfiqi olan Babur gətirildi. I Şah İsmayıl bu döyüşdə iri qoşun birləşmələrini məharətlə idarə edən, strateji əməliyyatlar həyata keçirən sərkərdə kimi özünü göstərdi. Qoşunlarını Mərv qalası kimi güclü qalaya göndərməyən şah mənasız itkilərin qarşısını almış oldu. Düşmənlə gərgin psixoloji mübarizədə onu guya geriyə çəkilməsinə inandıra bilən İsmayıl "yalandan geriyəçəkilmə" fəndini bacarıqla həyata keçirdi.





10.

Sərgidə I Şah İsmayılın qələbələrindən bəhs edən hər panelin yanında XVI əsr Təbriz miniatürlərindən döyüş səhnələri verilmiş, dörd ədəd döyüşçü manekeni qurulmuşdur. Manekenlər üzərində XVI-XVII əsr Səfəvi döyüşçüsünün silahları təqdim olunur. Burada "Külah-xud" dəbilqəsi, halqalı zireh, polad və dəri qalxanlar, insanbaşlı və öküzbaşlı toppuzlar, "Zubin" ikidişli nizə, "Şəmşir" qılınc növü, döyüş baltaları nümayiş olunur.

"XVI əsr Azərbaycan cəngavəri" tamölçülü atlı manekeni döyüş atı və süvarini nümayiş etdirir. Döyüş atı mulyajı üzərinə at yarağı salınmış, süvari üzərinə "Külah-xud" dəbilqə növü, üzü qoruyan halqalı maska, astarına halqalı zireh toxunmuş "Qaz-ağand" xələt növü, qolçaq, qalxan, qılınc, xəncər, döyüş baltası, öküzbaşlı toppuz taxılmışdır.

Səfəvilər dövlətinin yaranması Azərbaycan tarixində yalnız iqtisadi və etnik birləşmə baxımından deyil, həm də dövlətçiliyin inkişafı baxımından da əlamətdar və mütərəqqi hadisə olmuşdur. "Səfəvilər dövləti - rəmzlər, dövlət dili, inzibati quruluşu" bölməsində XVI-XVII əsr Azərbaycan dövlətçiliyinə aid unikal materiallar yerləşdirilmişdir. Onların sırasında Səfəvilər dövlətinin müxtəlif bayraqlarının ucluqları böyük maraq kəsb edir. Qeyd etmək lazımdır ki, ələm, aypara, yarpaqvari və kürəvari formada olan ucluqlar ilk dəfə nümayiş olunur. Bölmədə I Şah İsmayılın tuğrasının (möhürünün) təsviri, dünya muzeylərində qorunan Səfəvi rəmzlərinin fotoları, eləcə də Səfəvilər dövlətində saray mərasimlərini əks etdirən Təbriz miniatürləri, həmçinin dövlət dili və inzibati quruluşu haqqında tarixi məlumatlar verilmişdir.

İriölçülü bannerdə Səfəvi dövlətinin XVI əsrin birinci rübünə aid bayrağının ehtimal edilən təsviri (1530-1535-ci illərə aid Təbriz miniatürü əsasında) verilmişdir.

I Şah İsmayılın mühüm nailiyyətlərindən biri də sabit iqtisadi sistemin yaradılması idi. "I Şah İsmayılın dövründə Səfəvilər dövlətinin iqtisadiyyatı" adlı vitrində XVI-XVII əsr Azərbaycan iqtisadiyyatına aid unikal materiallar yerləşdirilmişdir. Onların sırasında Səfəvilər dövlətinin ərazisindən Qərb ölkələrinə ixrac olunan əsas məhsullardan ipək parçalar ("qızılbaş ipəkləri"), nadir naxışlarla bəzədilmiş mis qablar, bədii ornamentli kaşılar nümayiş olunur. Azərbaycanın XVI əsrdəki kənd təsərrüfatını, sənətkarlığını, ticarətini nümayiş etdirmək məqsədilə həmin dövrün miniatürləri təqdim olunur. Səfəvi dövlətinin əlverişli coğrafi mövqeyi dövlətin ərazisindən çoxsaylı tranzit yollarının keçməsinə səbəb olmuşdur. "Böyük İpək yolu - orta əsrlərin qlobal ticarət yolu" adlı xəritədə Səfəvilər dövləti ərazisindən keçən ticarət yolları göstərilmişdir. Vitrində I Şah İsmayılın dövründə Səfəvilər dövlətinin pul-maliyyə sistemi haqqında da



9.

6. MATM-da "Azərbaycan Səfəvilər dövlətinin dövlətçilik rəmzləri" vitrini.

7. MATM-da "XVI-XVII əsr Osmanlı silahları" vitrini.

8. "XVI-XVII əsrlər Səfəvi döyüşçüsü". Maneken üzərindəki silahlar MATM-ın "Silahlar və bayraqlar Fondu"nda saxlanılır.

9. Poladdan hazırlanmış qalxan. XVI əsr. MATM-ın "Silahlar və bayraqlar Fondu"nda saxlanılır.

10. "Azərbaycan cəngavərinin döyüş maskası". XV-XVI əsrlər. Mulyaj. Maskanın orijinalı Nasir D.Xəlilinin kolleksiyasında (London, Böyük Britaniya) saxlanılır.



11.

məlumat verilir. O dövrdə zərb olunmuş gümüş sikkələr ilk dəfə olaraq təqdim edilir. Burada Təbriz, Qəzvin, Qum, Şamaxı, Şabran, Naxçıvan, Gəncə, Şiraz, Herat, Lahican, Rey, Marağa və başqa şəhərlərdə zərb olunmuş 40-a yaxın sikkə göstərilir.

Sərginin "Çaldıran döyüşü" bölməsində XVI-XVII əsrlərdə Osmanlı qoşunlarına aid unikal materiallar yerləşdirilmişdir. Belə ki, taleyin hökmü ilə iki qardaş türk xalqının üz-üzə gəldiyi Çaldıran döyüşündə (1514-cü il) Osmanlı qoşunları say çoxluğu və texniki üstünlüyü sayəsində qalib gəlmişdilər. Sərgidə Çaldıran döyüşünün sxemi (Türkiyə tədqiqatçısı İ.Uzunçarşılının materialları əsasında), Sultan I Səlimin portreti (XVI əsr Avropa rəssamının işi), Səfəvi-Osmanlı müharibələri haqqında müfəssəl məlumat, müvafiq dövr Osmanlı hərbi miniatürləri, Çaldıran düzünün görünüşü (müasir foto), eləcə də unikal Osmanlı silahları nümayiş olunur. Bu silahlar sırasında Dəməşq poladından düzəldilmiş və qızıl ornamentlərlə bəzədilmiş Osmanlı qılıncı, yeniçərilərin fərqləndirici silahı olan "Yatağan" qılıncları, çaxmaqlı Osmanlı tüfəngi böyük maraq kəsb edir. Səfəvi-Osmanlı müharibələri bəşəriyyət tarixində uzunmüddətli müharibələrdəndir. Müvafiq paneldə müharibələrin başlanma səbəbləri, gedişi, nəticələri haqqında qısa məlumat verilir.

Səfəvilər dövlətində Təbriz bölgənin böyük siyasi, iqtisadi, eləcə də mədəni mərkəzlərindən biri olmuşdur. I İsmayıldan başlayaraq Səfəvi hökmdarları mədəniyyətin inkişafına böyük diqqət yetirirdilər. Nəticədə Azərbaycan Orta Şərqin tanınmış mədəniyyət mərkəzinə çevrilmişdir. "I Şah İsmayıl Xətainin dövründə Səfəvilər dövlətinin mədəniyyəti" bölməsində XVI-XVII əsrlər Azərbaycan mədəniyyətinə aid unikal materiallar yerləşdirilmişdir. Onların sırasında unikal naxışlarla bəzədilmiş mis qablar, Şah İsmayıl Xətainin və Məhəmməd Füzulinin əsərlərindən səhifələrin surətləri, əlvan ipək parça, bədii kaşılar, cıqqalar, yazı dəstləri nümayiş olunur. Bölmədə XVI-XVII əsrlər Azərbaycan mədəniyyəti barəsində müfəssəl məlumat, Təbriz miniatürləri, memarlıq abidələrinin fotoşəkilləri təqdim olunur. Ərdəbildə I Şah İsmayıl Xətainin dəfn olunduğu Şeyx Səfi məqbərəsi barədə ətraflı məlumat da verilir. Qeyd etmək lazımdır ki, Azərbaycan memarlığının parlaq nümunəsi olan bu məqbərə kompleksi 2010-cu ildə UNESKO-nun Ümumdünya mədəni irsi siyahısına daxil edilmişdir.

Doğma dilə və ədəbiyyata qayğının olduğu şəraitdə Azərbaycan poeziyasının inkişafı labüd idi. I Şah İsmayılın yaratdığı bu şəraitdə bütün Şərq poeziyasının nəhəngi olan Məhəmməd Füzuli, eləcə də Məsihi, Saib Təbrizi, Qövsi Təbrizi kimi şairlər meydana çıxmışdır. Şah İsmayılın iradəsi ilə yüksəklərə qaldırılan türk dilinin nüfuzu Füzuliyə türk dilində "Leyli və Məcnun" poemasını və digər təkrarsız ədəbi nümunələr yaratmağa imkan vermişdir. Sərgidə Məhəmməd Füzulinin həyat və yaradıcılığına həsr olunmuş panel də təqdim olunur.

"I Şah İsmayılın 1514-1524-cü illərdəki fəaliyyəti" adlı paneldə bu görkəmli tarixi şəxsiyyətin dövlət aparatının möhkəmləndirilməsi, iqtisadiyyatın gücləndirilməsi, elmin və mədəniyyətin inkişaf etdirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər haqqında eksponatlar vasitəsilə tamaşaçılara məlumat verilir.

I Şah İsmayılın şəxsiyyəti Azərbaycanda hər zaman böyük hörmətlə əhatə olunmuşdur. "I Şah İsmayılın xatirəsinin əbədiləşdirilməsi" vitrinində I Şah İsmayılın xatirəsinə ucaldılmış abidələr, şərəfinə adlandırılmış gəmilər, metro stansiyası, prospektlərin fotoşəkilləri, haqqında yazılmış bədii əsərlərdən parçalar verilmişdir.



12.

Sərgidə gənc heykəltəraş İslam Həsənəlizadənin modern üslubda işlədiyi "Atlı qızılbaş", "Şah İsmayıl ilə Əli Malkuçoğlu arasında döyüş" kiçik heykəlləri, rəssam Seyran İmanovun orta əsr Təbriz miniatür üslubunda işlədiyi "Çaldıran döyüşü" rəsmləri sərgilənir. Sərgidə türkiyəli rəssam Efe Unçu tərəfindən hazırlanmış iki əsər də ilk dəfə olaraq nümayiş olunur. Onlardan biri "Çaldıran döyüşü" mövzusunda işlənmiş fayans boşqabdır. Boşqab üzərində orta əsr Osmanlı miniatürləri üslubunda işlənmiş Çaldıran döyüşündən bir səhnə təsvir olunub. Efe Unçunun ikinci əsəri "Halic üslubunda yazı" adlanır. Fayans boşqab üzərində rəssam orta əsrlərdə Osmanlı dövlətinin ərazisində yayılmış və təkcə bədii deyil, fəlsəfi məna da kəsb edən haliç üslubunda təsvir-yazı vermişdir. Sənət əsərləri sırasında dəvəquşu yumurtası üzərində çəkilmiş rəsmlər xüsusi yer tutur. Belə ki, rəssam Bənövşə Əliyeva xüsusi sifariş əsasında dəvəquşu yumurtası üzərində "Çaldıran döyüşü" və "Şah İsmayıl ovda", rəssam Tahir Ələkbərov isə nəstəliq xətti ilə yazılmış "İxlas" surəsi" (nəstəliq xətti orta əsrlər dövründə Azərbaycanda ən geniş yayılmış xətt növü idi) kimi nadir sənət əsərləri yaratmışlar.

Qeyd etmək lazımdır ki, Efe Unçunun, İslam Həsənəlizadənin, Seyran İmanov, Bənövşə Əliyeva, Tahir Ələkbərovun əl işləri İlqar Həsənəlizadənin fərdi kolleksiyasında qorunur.

Beləliklə, Milli Azərbaycan Tarixi Muzeyində "I Şah İsmayıl – sərkərdə və hökmdar" sərgisi ilk dəfə olaraq I Şah İsmayılın həyat və fəaliyyətini əyani surətdə nümayiş etdirir. Sərgi 2016-cı il dekabrın 15-dək davam edəcək.

11. İpək parça ("qızılbaş parçası"). XVI əsr. Fraqment. MATM-ın "Etnoqrafiya Fondu"nda saxlanılır.

12. Mis məcməyi. XVII əsrin əvvəlləri. MATM-ın "Etnoqrafiya Fondu"nda saxlanılır.

13. Poladdan və fil sümüyündən hazırlanmış xəncər. XVII əsrin əvvəlləri. MATM-ın "Silahlar və bayraqlar Fondu"nda saxlanılır.

14. İpək parça ("qızılbaş parçası"). XVI əsr. Fraqment. MATM-ın "Etnoqrafiya Fondu"nda saxlanılır.



13.

14.